# "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1526 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1526 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1391; 2022, № 7, maddə 725) 1-ci hissəsindəki cədvəldə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.11.6.1-ci yarımbəndin "Xərclərin məbləği" və "Mərkəzləşdirilmiş xərclər" sütunlarında müvafiq olaraq "54,091,668.0" rəqəmləri müvafiq olaraq "5,810,010.0" rəqəmləri ilə əvəz edilsin;

1.2. 1.11.6.1.2-ci yarımbənddə aşağıdakı dəyişikliklər edilsin:

1.2.1. "Xərclərin istiqaməti" sütununda "Yeni nəsil şəxsiyyət vəsiqələrinin, biometrik pasportların və lisenziya" sözləri "Lisenziya" sözü ilə əvəz edilsin;

1.2.2. "Xərclərin məbləği" və "Mərkəzləşdirilmiş xərclər" sütunlarında müvafiq olaraq "48,291,668.0" rəqəmləri müvafiq olaraq "10,010.0" rəqəmləri ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda 1.11.6.1-1-ci yarımbənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 1.11.6.1-1 | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (yeni nəsil şəxsiyyət vəsiqələrinin və biometrik pasportların çap edilməsi) | 48, 281, 658.0 | 48, 281, 658.0 |

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2022-ci il*

---

Azərbaycan. - 2022.- 28 oktyabr.- S.2.